# NƏZMİYƏ ABBASZADƏ

*Yeganə TAPTIQOVA*

Nazmiyə Abbaszadə. Azərbaycanın musiqi sənəti tarixinə həmişəlik həkk olmuş bu şəxsiyyətin adı bir çoxlarına məlumdur və çoxlarının həyatında böyük rol oynamışdır. İstedadlı musiqiçi və parlaq müəllim, milli musiqi ifaçılıq mədəniyyətində ilk qadın violonçel ifaçısı kimi tanınan və onun çiçəklənməsinə öz töhfələrini verən Nəzmiyyə Abbaszadə bütöv bir musiqiçilər nəslini yetişdirmişdir.

Nazmiyə xanımın yaradıcılığı daim inkişaf edən violonçel ifacılığında müstəsna rol oynamışdır. O, Azərbaycan musiqi mədəniyyətinin inkişafına bu gün də fəal xidmət göstərən ən parlaq şəxsiyyətlərdən biridir.

Professor, ifaçılıq fakültəsinin dekanı - bizim üçün o hər şeydən əvvəl geniş ürəyə, incə və nəcib qəlbə, pedagoji istedada, xüsusi ünsiyyət mədəniyyətinə, insanların əhval-ruhiyyəsini duymaq qabiliyyətinə malik olan bir insandır.

Deyirlər ki, insan həyatı və onun yaradıcılıq fəaliyyəti doğulduğu andan təyin olunur. Cazibədar, zərif, xeyirxah Nazmiyə xanım Abbaszadə üçün tale musiqini seçir....

Bakı Musiqi Akademiyasında iş otağının astanasından içəri geçən kimi fakültədə həyat qaynamağa başlayır. O, bizim Alma-materi çox sevir və burada özünü doğma mühitdə hiss edir.

Onun fədakarlığı, yaradıcı enerjisi, yeni fikirləri insanı valeh edir, işləmək ruhunu alovlandırır. Birgə çalışdığımız illər ərzində mən hər gün qarşımda xeyirxah, mehriban, təvazökar bir insanı və ən əsası öz işinin mütəxəssisini görürəm. Nəzmiyyə xanımın xarakterinin bu keyfiyyətləri uzun illər davam edən



pedaqoji və ictimai fəaliyyəti dövründə inkişaf etmiş və güclənmişdir.

Əlbətdə ki, o bu cür zirvələrə çatmazdan əvvəl çətin bir yol keçmişir.

Hərtərəfli musiqi təhsili, müxtəlif bəstəkarların yaradıcılığı ilə tanışlıq, ifa olunan əsərlərin fikir və ideyalarını dərindən anlamaq, ifaçı və müəllim kimi fəaliyyət göztərmək, həyatı təcrübəni toplamaq, peşəkar müşahidələrini aparmaq - bütün bunlar onun yaradıcılığını tədricən yeni xüsusiyyətlərlə zənginləşdirmişdir.

Nazmiyə xanım Abbaszadə 1945-ci il iyulun 19-da Naxçıvanda anadan olub. İnsani keyfiyyətləri, tərbiyəsi, mədəniyyəti və təhsili Sultanzadə (ata tərəfdən) və Fərəcevlər (ana tərəfdən) ailələrindən gələn dəyərlərlə müəyyən olunmuşdur.

Hörmət, qayğı və diqqət mühitində böyüyən Nazmiyyə xanımın valideynləri son dərəcə həssas insanlar idi. Sultanzadələr uşaqlarının taleyindən narahatlıq hissi keçirərək, onlara hərtərəfli təhsil verməyə çalışmışlar. Onlar isə öz növbəsində şərəfli köklərə arxalanaraq həyatda öz yerlərini tutmuş, yaxşı təhsil almış, müxtəlif elmlərdə müəyyən zirvələrə çataraq ölkənin ictimai həyatında mühüm rol oynamışlar. Onların hər biri vətənpərvər olmuş və Azərbaycan ziyalılarının ölkəmizdə və onun hüdudlarından kənarda layiqli bir təmsilçisi kimi tanınmışlar.

Nazmiyyə xanımın yaradıcılıq fəaliyyətinin köklərini uşaqlıq illərində axtarmaq lazımdır. Məhz bu zaman milli musiqi sənəti sürətlə inkişaf edir və hər kəs övladlarını bu sənətə yiyələndirməyə, musiqi təhsili verməyə çalışır. N.azmiyyə Abbaszadənin təhsili konservatoriyanın nəzdindəki Orta İxtisas Musiqi Məktəbində professor Fərhəng Qulizadənin sinifində başlamış və daha sonra Tatyana Olesovanın rəhbərliyi altında davam etmişdir. Bu müəllimlərin səyləri nəticəsində gələcək mütəxəssisin fəaliyyəti üçün möhkəm bir zəmin yaranmışdır.

1963-cü ildə Nazmiyə Abbaszadə Azərbaycan Dövlət Konservatoriyasına daxil olur və tale onu dövrün görkəmli bəstəkarları, musiqiçiləri, ifaçıları, müəllimləri ilə bir araya gətirir. Bu şəxsiyyətlərin bəziləri onun peşəkar inkişafında mühüm rol oynayır.

Nazmiyə xanımın həyatındakı ən vacib uğur, milli musiqi mədəniyyətində misilsiz xidmətləri olan, bütün ömrü boyu təkcə müəllimi deyil, həm də dostuna çevrilmiş gözəl bir insanla ünsiyyəti idi. Bu, əlbəttə ki, Xalq artisti, professor Sabir Əliyev idi. Onilliklər ərzində Nazmiyə Abbaszadə öz ifaçılıq, pedaqoji, ictimai fəaliyyəti ilə müəlliminin ənənələrini inkişaf etdirir və Sabir Əliyevin Azərbaycanın violonçel sənətinin təşəkkülü və inkişafında əvəzsiz rolunu təsdiqləyir.

Kamera musiqisinə meyli olan Nazmiyə xanımın başqa nailiyyətlərindən biri də yaxın rəfiqələri ilə birlikdə qadın simli kvartet yaratmaq fikri olmuşdur. Birgə ifaçılıq mədəniyyəti, yeni tamaşalarla tanışlıq, çalınan əsərlərin müzakirəsi, söhbətlər, musiqiyə, incəsənətə fədakar sevgi və sadaqət - bütün bunlar gənc ifaçıların həyatının vacib bir hissəsi idi. Tədricən onların fəaliyyətləri genişlənir, qadınlardan ibarət simli kvartet Azərbaycanın mədəni həyatında öz yerini möhkəm tutur. Sələflərinin ənənələrini davam etdirən gənc istedadlar ən yaxşı klassik əsərləri təbliğ edir və yaradıcılıqları sayəsində bir çox Azərbaycan bəstəkarlarının əsərlərini ilk dəfə konsert salonlarında səsləndirir.

İş fəaliyyətinə 1968-ci ildə müəllim vəzifəsindən başlayan Nazmiyyə xanım bu günə qədər davam edən yolda dosent, professor, Əməkdar incəsənət xadimi səviyyəsinə yüksəlir. "Simli alətlər" kafedrasının müdiri işlədiyi müddətdə (1989-1999), daha sonra 1999-cu ildən bu günə kimi "İfaçılıq fakültəsi"nin dekanı kimi o həmkarları tərəfindən yüksək tələbkarlığı və incə zövqü ilə seçilən, zəngin ifaçılıq və pedaqoji təcrübəsi olan, xeyirxah və tələbkar insan kimi tanınır. Şən, cazibədar, mülayim, mehriban bir xarakteri ilə Nazmiyyə xanım konsevatoriyanın işçiləri arasında böyük nüfuz qazanır.

İncə bir musiqiçi və ziyalı insan kimi o, hər bir müəllim və tələbəyə diqqətlə yanaşır. Şəxsiyyətinin başqalarına təsirinin gücü böyük olduğundan, bütün bu illərdə asanlıqla ətrafında bənzərsiz bir ünsiyyət mühiti yaradır. Nazmiyə xanım özünü bu çətin, məsuliyyətli işə bütün qəlbi ilə həsr edir və fədakar əməyi sayəsində səlahiyyət müddəti bitdikdən sonra da yenidən həmin vəzifəyə seçilir, daim parlaq bir lider kimi göstərir.

Kafedraların maraqlanı üstün tutaraq o, eyni zamanda, Azərbaycan dilində tədris materialının zənginləşdirilməsi ilə də məşğul olur. Yaradıcılıq həyatı boyu Nazmiyyə xanım görkəmli bəstəkarların yaradıcılığına həsr olunmuş bir çox işlər çap etdirir. Onun də fəaliyyəti dəfələrlə tədqiqat obyektinə çevrilir, müxtəlif nəşrlər, radio verilişləri, sənədli filmlərdə öz əksini tapır.



Nazmiyə Abbaszadənin - dekan, müəllim, musiqiçi kimi nüfuzu çox yüksəkdir. İnsanlar məsləhət almaq üçün ona müraciət edir, müxtəlif məsələlər üzrə fikirlərinə diqqətlə yanaşır.

Nəzmiyyə Abbaszadənin yaradıcılıq fəaliyyətinin nəticəsi - yüksək musiqiçi təhsili ilə xalqına xidmət edən sənətkarlardır. Yarım əsrlik pedagoji fəaliyyəti zamanı bir çox məşhur musiqiçi onun məktəbini keçibdir. Onların bəziləri bu gün müxtəlif ölkələrdə Azərbaycanın musiqi təhsilini yüksək səviyyədə nümayiş etdirirlər. O, tələbələrin hər birinə fərdi şəkildə yanaşır və bu səylər nəticəsində onlar qısa müddətdə nəzərəçarpacaq nəticələrə yiyələnir, respublika və beynəlxalq müsabiqələr laureatı adını qazanırlar. Nəzmiyyə xanımım yetirmələrinin hamısı yekdilliklə sevimli müəllimlərinə səmimi təşəkkürlərini və minnətdarlıqlarını bildirirlər. İstedadlı musiqiçi, Beynəlxalq müsabiqələr laureatı Orxan Hüseynov - "O, mənim üçün həm ana, həm də müəllimdir" - deyir. - Bütün uğurlarımın təməlini qoyan da odur. Azərbaycanlı violonçel ifaçısı kimi, gözəl müəllimim Nazmiyyə xanımın sayəsində milli və beynəlxalq müsabiqələrdə qalib gəlmişəm, beynəlxalq konsert-lərdə, festivallarda və yay məktəblərində iştirak etmişəm. Qeyd etmək istəyirəm ki, sizin əzəmətiniz, yüksək insani hissləriniz və məhəbbətiniz qarşısında baş əyirəm".

İstedadlı bir musiqiçi və parlaq müəllim Nazmiyə xanım dəfələrlə beynəlxalq müsabiqələrin münsiflər heyətinin üzvü olmuşdur. Onun çoxşaxəli fəaliyyəti yüksək qiymətləndirilmiş və 2008-ci ildə musiqi sənətinə verdiyi töhfələrə görə Nazmiyə Abbaszadə Azərbaycan Prezidentinin fərmanı ilə "Əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür. Bundan əlavə, illər ərzində dəfələrlə müxtəlif dövlət qurumlarından sertifikatlar və təriflər almışdır.

Bu gün də Nazmiyyə xanım tələbələri yönəldir, onlara məsləhət verir, professional sirləri izah edir və ustad dərsləri aparır. Nazmiyə Abbaszadənin ifaçılıq mədəniy-yətindəki hər bir yeniliyə olan marağı insanı valeh edir. O daim yaradıcılıq axtarışındadır, əldə olunan nailiyyətlərlə kifayətlənmir, özü qarşısında yeni vəzifələr qoyur və onların həllinə nail olur. "Hər kəsi öyrətmək və kömək etmək" - bu du Nazmiya xanımın əsas həyat kredosu.

Nazmiyə Abbaszadə güclü şəxsiyyətdir, çünki düşündüyü hər şeyi reallaşdırmağı bacarır, Musiqi Akademiyasına və öz peşəsinə olan sevgisini, bir çox əziz insanlara isti münasibətini qoruyub saxlayır, çətin anlarda onlara səmimi və həssaslıqla yanaşır, səxavətlə və fədakarlıqla kömək edir. Həmişə gülərüz, mehriban, həyat və yaradıcılıq təcrübəsi ilə müdrikləşmiş Nazmiyə xanım məsləhətləri ilə daim bölüşür, hər problemin ən yaxşı həll yolunu göstərir. Bu, onun insani keyfiyyətlərinin ayrılmaz hissəsidir.

Nəzmiyyə Abbaszadə yaradıcılıq fəaliyyəti ilə Azərbaycan musiqi ifaçılığı tarixinə parlaq bir səhifə yazdı. Nazmiyə xanım violonçel musiqi alətinin fəal bir təbliğçisidir və artıq XXI əsrdə onun yorulmaz əməyi sayəsində violonçel ifaçılığı fəal şəkildə inkişafını davam edir.

Ən əsası isə o, istedadlı ifaçı, parlaq müəllim olmaqla yanaşı, heyrətamiz dərəcədə mehriban, böyük ürəyə, geniş qəlbə sahib bir insandır. Bu gün, 75 illik yubileyində, cəsarətlə demək olar ki, Nəzmiyyə xanım Abbaszadə bütün həyatını təhsil və musiqi sənətinə həsr etmişdir.

Əziz Nazmiyə xanım, Sizi yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirik! Sizə cansağlığı, böyük səbr və çoxşaxəli fəaliyyətinizdə yeni uğurlar, uzun ömür və firavanlıq arzulayırıq!!!